yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 TBİLİSİ KİTAB GÜNLƏRİ – 2018

3 GƏLİNİMİZ DƏBLİ, TOYUMUZ DƏBDƏBƏLİ OLSUN

4 QEYDİYYAT OLUNMADIQDA CƏRİMƏYƏ SƏBƏB OLACAQ FƏALİYYƏTLƏR

6 AİLƏ İNSİTUTUNDA XƏYANƏT İNQİLABI

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 OKTYABR 2018-Cİ İL

№017 (76)

## MSK SƏDRİ: "PREZİDENT SEÇKİLƏRİNİN İKİNCİ TURU SƏSVERMƏNİN NƏTİCƏLƏRİ ELAN EDİLDİKDƏN İKİ HƏFTƏ SONRA KEÇİRİLƏCƏK"



Gürcüstanda prezident seçkilərinin ikinci turu oktyabrın 28-də baş tutmuş səsvermənin yekun nəticələri elan edildikdən iki həftə sonra keçiriləcək. Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Tamar Jvaniya məlumat verib.

Onun sözlərinə görə, qanuna əsasən, yekun nəticələrin açıqlanması üçün maksimum müddət seçki tarixindən 20 gün sonradır.

Qanuna əsasən, seçkilərdə səslərin 50%-dən çoxunu toplayan namizəd qalib hesab olunur. Namizədlərdən heç biri belə nəticə əldə edə bilmirsə, ən yaxşı nəticəyə sahib iki namizəd arasında ikinci tur keçirilir.

MSK-nın məlumatlarına əsasən, "Gürcü arzusu" Partiyasının dəstəklədiyi müstəqil namizəd Salome Zurabişvili səslərin 38,63%-ni, müxalif Vahid Milli Hərəkat Partiyasının namizədi Qriqol Vaşadze isə 37,74%-ni toplayıb. Səslərin 10,97%-ni Avropalı Gürcüstan Partiyasının prezidentliyə namizədi David Bakradze toplayıb. Leyboristlər Partiyasının lideri Şalva Natelaşvili 3,75% səslə dördüncüdür.

Beşinci yerdə Azad Demokratlar Partiyasının namizədi David Usupaşvili və "Qirçi" Partiyasının namizədi Zurab Caparidze qərarlaşıb. Onların hər biri seçicilərin 2,26% səsini toplayıb.

MSK rəhbərinin verdiyi məlumata əsasən, seçicilərin ümumi sayı 3 518 877 nəfər təşkil edib. Bunun 14 795-i xaricdə yaşayan Gürcüstan vətəndaşlarıdır. Prezident seçkilərində 1 637 956 seçici iştirak edib, bu isə seçicilərin 46,74%-dir.

## BEYNƏLXALQ MÜŞAHİDƏ MİSSİYASI PREZİDENT SEÇKİLƏRİ İLƏ BAĞLI RƏYİNİ AÇIQLAYIB

Oktyabrın 28-də keçirilən prezident seçkilərini müşahidə etmiş beynəlxalq müşahidə missiyası rəyini açıqlayıb. Müşahidə missiyası seçkiləri azad və şəffaf qiymətləndirib.

Beynəlxalq müşahidə missiyasına ATƏT, AŞPA, NATO Parlament Assambleyası və Avropa Parlamentinin nümayəndələri daxildir. Missiyada, ümumilikdə, 40 ölkənin 400 müşahidəçisi təmsil olunub. Onların arasında uzunmüddətli və qısamüddətli müşahidəçilər var.

ATƏT-in xüsusi koordinatoru Kristian Vigenin deyib ki, Gürcüstanda prezident seçkiləri azad şəkildə keçirilib: "Seçicilər azad formada fikirlərini ifadə ediblər. Gürcüstan prezident seçkiləri ilə demokratiyaya sadiqliyini nümayiş etdirdi. Ümid edirik ki, gürcüstanlılar seçkilərin ikinci turunda fəal iştirak edəcək və nəticələr xalqın iradəsini əks etdirəcək".

NATO PA-nın nümayəndə heyətinin rəhbəri Rasa Yuknyaviçene seçkilərlə bağlı qeydə alınan bəzi nöqsanları açıqlayıb: "Seçkilər zamanı inzibati resurslardan istifadə və hakim partiyanın yüksək vəzifəli məmurlarının seçki kampaniyasında iştirak etməsi halını müşahidə etdik. Biz Gürcüstanda yeni neqativ hal izlədik ki, bu da QHT-lərə qarşı təzyiq və hücumlar oldu. Gürcüstanda ilk dəfə olaraq prezident seçkilərinin ikinci turu olacaq. Ümid edirik ki, bu nöqsanlar aradan qaldırılacaq".

Beynəlxalq missiya Gürcüstanda seçkilərin peşəkar səviyyədə təşkil olunduğunu və ciddi nöqsanların qeydə alınmadığını vurğulayıblar. Onlar qeyd ediblər ki, Gürcüstanda seçkilərin demokratik tələblərə uyğun keçirilməsi üçün bir sıra islahatlar həyata keçirilsə də, müəyyən boşluqlar hələ də qalmaqdadır.

Missiya Gürcüstanda keçiriləcək prezident seçkilərinin ikinci turunu da müşahidə edəcək.

## DAVİD ZALKALİANİ TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ MÖVLÜD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞÜB

Gürcüstanın xarici işlər naziri David Zalkaliani Türkiyəyə səfəri çərçivəsində türk həmkarı Mövlüd Çavuşoğlu ilə görüşüb. D.Zalkaliani M.Çavuşoğlunu Cümhuriyyət günü münasibəti ilə təbrik edib və Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli görüşünə Türkiyənin ev sahibliyi etdiyi üçün təşəkkürünü bildirib. Nazirlər üç ölkənin əlaqələrinin xüsusən iqtisadiyyat, energetika, nəqliyyat kimi sahələrdə daha da möhkəmlənməsi üçün bu formatın əhəmiyyətini diqqətə yetiriblər.

Görüşdə tərəflər Gürcüstan-Türkiyə ikitərəfli münasibətlərinə dair məsələləri müzakirə ediblər. Bir daha iki ölkənin strateji əməkdaşlığı qeyd olunub. Türkiyə tərəfindən Gürcüstanın Avroatlantikaya inteqrasiyasına və Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə dəstəyi diqqətə çatdırılıb.

Beynəlxalq tərəfdaşlıq, həmçinin Türkiyə tərəfindən Gürcüstanın sülhməramlı siyasəti və sülhməramlı təşəbbüsünün dəstəklənməsinin əhəmiyyəti qeyd olunub. Nazirlər iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasını yüksək qiymətləndiriblər və bu format çərçivəsində gələcək görüşün keçirilməsi məsələsini



müzakirə ediblər.

Görüşdə Gürcüstan və Türkiyə əməkdaşlığı və iki ölkənin beynəlxalq əhəmiyyətli nəqliyyat və energetika layihələrinə qoşulması yüksək qiymətləndirilib. Bu baxımdan bir daha Bakı-Tbilisi-Qars layihəsi və Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin açılmasının əhəmiyyəti vurğulanıb.

Nazirlər Gürcüstan və Türkiyənin iqtisadi sahədə uğurlu əməkdaşlığını qeyd ediblər və Hökumətlərarası İqtisadi Komissiyanın keçirilməsi imkanlarını müzakirə ediblər.

Həmçinin David Zalkaliani İstanbulun yeni beynəlxalq hava limanının təntənəli açılış mərasimində iştirak edib.

## MAMUKA BAXTADZE: SAMQORİ-LİLO İSTİQAMƏTİNDƏ YENİ METRO XƏTTİNDƏN 230000 ADAM İSTİFADƏ EDƏCƏK

Gürcüstanın baş naziri Mamuka Baxtadzenin dediyinə görə, Samqori-Lilo istiqamətində yeni metro xəttindən 230000 adam istifadə edəcək. M.Baxtadzenin bildirdiyinə əsasən, ictimai nəqliyyatın inkişafı "yaşıl siyasətin" ən əsas üstünlüklərindən biridir.

Bundan əlavə, baş nazir elektromobillərin gətirilməsi ilə bağlı təşəbbüsdən də danışıb. Baş nazirin bəyanatına görə, bu çox vacib layihədir və Gürcüstanda olan problemlərin həllini təmin edəcək, iqtisadiyyatın vəziyyətini əhəmiyyətli dərəcədə gücləndirəcək.

"Bizim iqtisadiyyatın "Axilles dabanı" ticarət çatışmamazlığıdır. Həyata keçirdiyimiz ixracdan üç dəfə çox idxal edirik. İdxalın ən böyük hissəsi yanacağın payına düşür. Elektromobillərlə biz iqtisadiyyatımız üçün çox səmərəli işlər görə biləcəyik. Bu, təkmilləşdirilmiş ekologiya, eləcə də təkmilləşdirilmiş makro iqtisadi mühit deməkdir. Çünki bu layihə ilə ticarət çatışmamazlığı azalacaq. Biz lizinq sxemlərinə əhəmiyyətli güzəştlər edəcəyik. Daxili mühərrikli avtomobili olan vətəndaş yanacağa xərclədiyi ilə avtomobilin dəyərini ödəyəcək və faktiki olaraq 5 il müddətində yeni elektromobil alacaq", - deyə M.Baxtadze bildirib.



# TBİLİSİ KİTAB GÜNLƏRİ – 2018

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Hər il olduğu kimi Tbilisidə A.Tsereteli 118 ünvanında yerləşər "Expo-Georgia" Sərgi Mərkəzində bu il noyabrın 8-dən 11-nə kimi Tbilisi Kitab Günləri adlı kitab festivalı keçiriləcək. Yarmarkada Gürcüstanın bütün nəşriyyatları və kitab mağazaları iştirak edir. Endirimlə satışa çıxarılan kitablar arasında gürcü dilində klassik və müasir ədəbiyyat nümunələrindən tutmuş ən yeni tərcümələr, elmi ədəbiyyat, uşaq ədəbiyyatı, dərsliklər, rus və ingilis dilində kitablara qədər əldə etmək olar. Bundan əlavə, yarmarkada məktəb və dəftərxana ləvazimatları da olur. Tbilisi Kitab Günləri oxucularla müəlliflərin görüşünü də təşkil edir. Yerli müəlliflərlə yanaşı xarici müəlliflər də yarmarkada iştirak edir, oxucuların suallarına cavab verir, pərəstişkarları üçün kitablarını imzalayırlar. Onu da qeyd edim ki, ötən yarmarkaların birində Azərbaycan yazıçısı Məqsəd Nurun gürcü dilində "Şəhər meri" romanının təqdimatı, müəlliflə oxucuların görüşü və imza mərasimi də keçirilmişdi (Təəssüf ki, bizimkilər heç onda da görsənmirdilər). Ən əsası da odur ki, yarmarka başlayandan sona çatana kimi sərgi mərkəzi insanlarla dolu olur. Gürcülər öz uşaqları ilə bərabər mərkəzin nəhəng binasından əllərində içi kitbalarla dolu torbalarla çıxırlar. Bunu mən hər dəfə festivalda olanda gözlərimlə görürəm. Və gürcülərin ən çox əlləri dolu torbalarla məhz bu yarmarkadan çıxdıqlarını görmüşəm. Bizimkilər isə əlləri dolu torbalarla ərzaq mağazalarından, tikinti materialları bazarından və ya Lilo bazarından çıxırlar. Çıxsınlar, yesinlər, tiksinlər, geyinsinlər, amma arada oxusunlar da. Özləri oxumur-oxumur, heç olmasa ildə bir dəfə uşaqlarını yanlarına alıb kitab festivallarına, kitab yarmarkalarına, kitab mağazalarına aparsınlar.**

Tbilisi Kitab Günləri xüsusilə də şagirdlər üçün gözəl fürsətdir. Praktikadan da məlumdur ki, dil öyrənməyin bir üsulu da həmin dildə çoxlu mütaliə etməkdir. Belə ki, kitab festivalında məktəblilər üçün gürcü dilində Mark Tven, Astrid Lindqren, Antuan de Sent-Ekzüperi ilə yanaşı gürcü müəlliflərin əsərləri, müxtəlif xalqların folklor nümunələrindən ibarət 5-6 yaşından 14-15 yaşa qədər uşaqlar üçün nəzərdə tutulmuş "Bakur Sulakauri" nəşriyyatının bir-birindən gözəl kitabları var.

Əziz valideynlər, uşaqlarınızı məktəb açılmamışdan qabaq paltar almaq üçün bazarlara apardığınız kimi, doğum günlərini qeyd etmək üçün makdonaldslara apardığınız kimi, toylara hazırlaşarkən saç salonlarına apardığınız kimi, heç olmasa ildə bir dəfə də bu yarmarkaya aparın. Uşaqlarınızı kitabın da ən gözəl hədiyyə olmasına inandırın, oxumaq həvəsi yaradın. Uşaqlarınıza kitab alın. Kitab hədiyyə edin.

Uşaqlarda kitaba həvəsi yaratmaq valideynlərlə yanaşı müəllimlərin də öhdəliyinə düşür. Müəllim keçdiyi fəndən əlavə şagirdlərə kitablar haqqında da danışmalıdır, onlarda kitaba maraq oyatmalıdır (Qulağıma səs gəlir ki, bizim müəllimlər heç özləri kitab oxumurlar, uşağa nə danışsınlar). Təhsil ilinin sonunda şagirdləri marşrutkalara doldurub Tbilisi heyvanat parkına aparmaq əvəzi kitab mağazalarına, kitab sərgilərinə, kitab təqdimatlarına aparmaq lazımdır. Tbilisinin heyvanat parkında olan keçini, inəyi, qoyunu, ördəyi, toyuğu, çaqqalı... uşaq onsuz da yaşadığı rayonda görür.

Nə qədər ki, kitaba sevgi, kitaba, kitab yazana hörmət olmayacaq, elm, savad, bilik bütün məktəblilərin məqsədi olmayacaq, o zaman pulla, tanışlıqla diplom alan, hər qalstuk taxan, məmur, partiya sədri, deputat, mağaza sahibi, restoran sahibi, çayxana sahibi, villa sahibi, cip sahibi millətə ziyalılıq, ağsaqqallıq edəcək. Ona görə də bu gün ortaya düşüb ziyalılıq, ağsaqqalıq edənlərin kitabdan xəbəri yoxdur. Ona görə müəllimlərdən daha çox pullulara hörmət edirlər, məclislərdə pullulara başda yer verirlər (Bunda müəllimlərin də günahı var). Ona görə əlində kitab tutan gəncə gülürlər (Mən şagird olanda hətta yuxarı siniflərin məktəbə çanta aparmasına gülürdülər, bunu "zapadlo" sayırdılar). Çünki cəmiyyətin avtoritetləri içi boş olan barsız, iri gövdəli ağaclardan başqa bir zad deyil. Bu avtoritetləri də elə cəmiyyətin içi boş olan, yalnız külək əsəndə səs çıxaran qamışları yaradır. Kitabsız ziyalı ziyanlıdan başqa bir şey deyil, millətə də, cəmiyyətə də ziyanlıdı.

**Hər dəfə "ExpoGeorgia" Sərgi Mərkəzinin qapısından əli kitablarla dolu çıxan azərbaycanlıları görməyəndə Sabirin vərəmli öskürəyini, Mirzə Cəlilin uşaqları isinsin deyə yandırdığı əlyazmalarını, Axundovun tənha dəfnini xatırlayıram. Nə qədər ki, kitab oxumayacaq, oxutdurmayacaqsınız, bütün bunların günahkarı sizsiniz.**

## MAMUKA BAXTADZE TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 95-Cİ İLDÖNÜMÜNƏ HƏSR EDİLMİŞ TƏDBİRDƏ İŞTİRAK EDİB



Gürcüstanın ticari tərəfdaşları arasında Türkiyə birinci yeri tutur. Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze İncəsənət Muzeyində Türkiyə Cümhuriyyətinin 95-ci ildönümünə həsr olunmuş tədbirdə çıxışı zamanı bildirib. Baş nazir Türkiyə Cümhuriyyətinin fövqəladə və səlahiyyətli səfiri Fatma Ceren Yazqanı Cümhuriyyət bayramı münasibəti ilə təbrik edib və qeyd edib ki, 95 il ərzində Türkiyə bir çox çətinliklər aşaraq geniş iqtisadi və siyasi gücə çevrilib.

M.Baxtadze qeyd edib ki, Gürcüstan və Türkiyənin birgə həyata keçirdiyi Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan, Cənubi Qafqaz Boru Kəməri və Bakı-Tbilisi-Qars kimi regional və tarixi layihələri var.

Baş nazir Gürcüstanın müstəqillik əldə etdiyi gündən bəri Türkiyənin Gürcüstana dəstək olduğunu vurğulayıb.

"Türkiyəni strateji dostumuz hesab edirik. Eyni zamanda Türkiyə bizim beynəlxalq istəklərimizi təmsil edir, çünki Gürcüstan NATO-ya üzv olmaq istəyir və Türkiyə bu ideyanın dəstəkçisidir. Ona görə də, xanımlar və cənablar, istəyirəm bir daha türk dostlarımızın milli bayramını təbrik edim. Sizə sülh və firavanlıq arzulayıram", - Mamuka Baxtadze bildirib.

Tədbirdə Gürcüstanın diplomatik korpusunun, Qeyri-Hökumət Təşkilatlarının və beynəlxalq təşkilatların, həmçinin media, siyasi partiyalar və dini konfessiyaların nümayəndələri iştirak ediblər.

## BARIŞIQ VƏ VƏTƏNDAŞ BƏRABƏRLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİNİN YENİ MÜAVİNİ TƏYİN EDİLİB



Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvilinin yeni müavini var. Nazirliyin məlumatına görə, K.Tsixelaşvilinin yeni müavini təhsil və elm nazirinin keçmiş müavini Lia Qiqauri təyin edilib.

Nazirlikdən bildiriblər ki, L.Qiqauri vətəndaş bərabərliyi istiqamətində çalışacaq.

Xatırladaq ki, təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili sentyabrın 10-u Lia Qiqaurini vəzifəsindən azad edib. M.Batiaşvili bunun təhsil sistemindəki reformalarla əlaqəli olduğunu deyib.

## KETEVAN TSIXELAŞVİLİ: "GÜRCÜSTANDA MİLLİ AZLIQLARDAN OLAN GƏNCLƏRİN DAHA UĞURLU OLMASINA ÇALIŞIRIQ"



"Gürcüstanda milli azlıqlardan olan gənclərin daha uğurlu olmasına çalışırıq". Bunu Gürcüstanın barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili deyib.

O bildirib ki, Gürcüstanda milli azlıqlardan olan tələbələrin dövlət qurumlarında iş təcrübəsi keçməsi üçün proqram həyata keçirilir: "Etnik azərbaycanlı və erməni tələbələrdən olan 150-dən çox gənc artıq bu təcrübə proqramında iştirak edib. Bu gənclər çox istedadlıdırlar və iş fəaliyyətini həm mərkəzi, həm də yerli səviyyədə müxtəlif sahələrdə davam etdirmələri üçün potensialları var".

K.Tsixelaşvili qeyd edib ki, etnik azlıq nümayəndələri gürcü dilinin öyrənilməsi üçün böyük səy göstərirlər: "Əlbəttə ki, milli azlıqlar öz doğma dillərini yaxşı bilməlidirlər. Dövlət dilinə də yaxşı yiyələnmək çox vacibdir. Belə ki, gürcü dilini bilmək ölkənin ictimai həyatında tam formada iştirak etməyə imkan verir".

## QISAMÜDDƏTLİ KREDİTLƏRİN FAİZİ ARTIB

Qısamüddətli kreditlərin faiz hissəsi artıb. Gürcüstan Milli Bankının statistik göstəricilərinə əsasən, 2018-ci ilin 1 oktyabrından lari ilə verilən qısamüddətli kreditlərin faizi 3,3% artıb və 27% təşkil edib (Bu göstərici sentyabrda 23,7% idi). Xarici valyutada isə artım yalnız 0,1% idi. 1 oktyabrdan xarici valyutada verilən kreditlərdə faiz hissəsi 6,5% təşkil edirdi.

Lari ilə verilən uzunmüddətli kreditlərdə isə faiz hissəsi 17,8%-dən 17,9%-ə qədər artıb. Xarici valyutada isə yenə də 10,4% olaraq qalır.

Milli Bank tərəfindən yayımlanan statistikaya əsasən, 2018-ci ilin 1 oktyabrında kommersiya bankları tərəfindən cəmi 3,788 milyard lari dəyərində kredit verilib. Bu isə keçən ayla müqayisədə 6 milyon lari çoxdur. 1 sentyabr tarixindən verilən kreditlər 3,783 milyard lari təşkil edir.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YARANMASININ 95-Cİ İLDÖNÜMÜ QEYD EDİLİB




Türkiyə Cümhuriyyətinin yaranmasının 95-ci ildönümü qeyd olunub. 1923-cü il oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisi Cümhurriyyəti elan edib.

1925-ci ildə bu günün türk dövlətinin yaranması günü kimi qeyd olması barədə qanun qəbul olunub.

Türkiyə Respublikasının qurulması türk milləti və bu ölkənin varlığı uğrunda mübarizə aparanlar üçün böyük sınaqlar hesabına başa gəlib. Türkiyə Cümhuriyyətinin yaradılması Birinci Dünya müharibəsi illərində və ondan sonra Osmanlı dövlətini parçalayıb məhv etmək istəyənlər üzərində qələbənin nəticəsidir.

Qeyd edək ki, 1683-cü ildə Osmanlı dövlətinin sahəsi 5,2 mln. kv. km, Birinci Dünya müharibəsi başlayanda 1,8 mln. kv. km, olub. Hazırda isə Türkiyə Cümhuriyyətinin ərazisi 783 min kv. km-dir.

Yeri gəlmişkən qeyd edək ki, Osmanlı dövləti 1299-cu ildə qurulub. 2019-cu ildə bu dövlətin qurulmasının 720-ci ildönümü qeyd olunacaq.

1876-cı ildədək ölkəni mütləq monarxiya, 1876-1878-ci illər və 1908-1918-ci illərdə isə ölkəni konstitusiya monarxiyası idarə edib. Həmin illərdə ölkə parlamentli sistemə keçmişdi.

Birinici Dünyda müharibəsində Osmanlı dövləti məğlubiyyətə uğradıqdan sonra ərazisi işğala məruz qalmışdı. O zaman Mustafa Kamal Atatürkün başçılıq etdiyi hərəkatın mübarizəsi 1923-cü ildə milli qüvvələrin qələbəsi ilə başa çatıb. 1920-ci il aprelin 23-də Ankarada Böyük Millət Məclisi qurulub.

1922-ci il noyabrın 1-də isə Osmanlı dövlətinin fəaliyyətinin dayandırıldığı elan edilib. 1923-cü ildən Türkiyə parlament üsul idarəsi ilə idarə edilirdi. 2018-ci ildən isə ölkə prezident üsul idarəsinə keçib.

Ölkənin ilk prezidenti Mustafa Kamal Atatürk (1923-1938) olub. Hazırda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğandır.

Hazırda ölkə əhalisinin sayı 80 milyon 810 min 525 nəfərdir.

Ötən 95 ildə Türkiyə Cümhuriyyətinin düşmənləri də dəyişməyib. Onlar bu gün başqa adla Cümhuriyyəti məhv etmək istəyirlər. Ancaq tarixin bütün sınaqlarından uğurla çıxan Türkiyə bölgədə və dünyada öz mövqeyini saxlayır.

## İSTANBULUN YENİ HAVA LİMANININ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB



Oktyabrın 29-u Türkiyə Cümhuriyyətinin elan edilməsinin 95-ci ildönümü günündə İstanbulda yeni inşa olunmuş hava limanının açılış mərasimi keçirilib.

Tədbirdə Pakistan prezidenti Arif Alvi, Qırğız Reppublikasının prezidenti Sooronbay Jeenbekov, Albaniya prezidenti İlir Meta, Qətərin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Moldova prezidenti İqor Dodon və başqaları iştirak ediblər.

Yeni hava limanına ilk olaraq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təyyarəsi enib.

Əvvəlcə Türkiyənin dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra prezident Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Binəli Yıldırım, nəqliyyat və kommunikasiya naziri Cahit Turan və "Çengiz İnşaat" şirkətinin sahibi Çengiz Yılmaz çıxış ediblər.

Yeni hava limanından ilk daxili uçuş Ankaraya, xarici uçuş isə Şimali Kiprə və Azərbaycana həyata keçiriləcək.

Qeyd edək ki, ümumi büdcəsi 10 milyard avrodan artıq olan yeni hava limanının büdcəsi 6 milyard avro olan ilk mərhələsinin tikintisi 4 il əvvəl başlayıb, burada 10 minədək fəhlə çalışıb. Sahəsi 76,5 milyon kvadrat metr olan hava limanının ilk mərhələdə illik gücü 90 milyon sərnişindir. Yekun variantda burada 6 uçuş zolağı, 500 təyyarəlik dayanacaq, 70 min avtomobil yerləşəcək açıq və qapalı parkinqlər fəaliyyət göstərəcək. İstanbul aeroportunun tikintisinin 2028-ci ilədək tamamlanması nəzərdə tutulur. Aeroport tam istifadəyə verildikdən sonra hər gün 2 min təyyarə qəbul edəcək və yola salacaq. 350 istiqamətə uçuşları həyata keçirəcək hava limanı dünyanın 250 aviaşirkətinə xidmət göstərəcək.

## AVROPA İTTİFAQININ TBİLİSİDƏKİ YENİ SƏFİRİ: GÜRCÜSTAN AVROPA İTTİFAQININ ÜZVÜ OLMAĞA HAZIR DEYİL



Avropa İttifaqının (Aİ) Tbilisidəki yeni səfiri Karl Xartsel KİV nümayəndələri ilə görüşdə Gürcüstanın Avropa İttifaqına üzv olmağa hazır olmadığını bildirib.

Karl Xartsel qeyd edib ki, Gürcüstanı Aİ-yə yaxınlaşdıracaq bütün mövcud alətlərdən istifadə olunmalıdır: "Bildiyiniz kimi, assosiasiya haqqında saziş Gürcüstanın Avropa İttifaqı standartlarına yaxınlaşmasını nəzərdə tutur. Azad ticarət haqqında sazişin məqsədi isə Gürcüstanı təşkilata islahatlar həyata keçirməklə yaxınlaşdırmaqdır. Avropa İttifaqının genişləndirilməsi ilə bağlı Brüsseldə müxtəlif fikirlər var. Lakin bir məsələ ilə bağlı yekdil fikir var ki, bu da Gürcüstanın təşkilata daha da yaxınlaşdırılması üçün ölkədə mövcud olan hər bir alətdən istifadə olunmasıdır. Gələcək Avropa İttifaqının qarşıdakı illərdə necə inkişaf edəcəyindən asılı olacaq".

## GƏLİNİMİZ DƏBLİ, TOYUMUZ DƏBDƏBƏLİ OLSUN



Hacı BƏKİROĞLU

*hacibakir@mail.ru*

**Bu mövzuyla bağlı dəfələrlə yazmışıq, belə getsə yenə də yazacağıq.**

Toy bəylə gəlinin ailə qurduğu və ətrafa bu evlilik haqqında xəbər etdiyi bir məclisdir. Dədə-babalarımız toy dedikdə şadlanmağı, yeyib-içməyi nəzərdə tuturdular. Düzdür, indi də şadlanırıq, yeyib-içirik. Amma ortadakı fərq çox böyükdür.

Bu gün toy dedikdə ilk ağlımıza gələn məclisin süfrəsidir. Heç kim imkanını düşünmür. "Qonşudan qalma dala" prinsipi ilə filankəs etdi mən də edim qeyrətindədir.

Son zamanlarda bir neçə toy məclisində iştirak etdim və sözün düzü gəldiyimiz son vəziyyət məni bu yazını yazmağa məcbur etdi. Toya qədər olan elçilikdə, nişan mərasimində olunan israfları qoyaq bir kənara. Bu yazımızda sırf toy haqqında danışaq.

İlk öncə bu hadisə cehiz verilməsiylə başlayır. Qız üçün lazım olan-olmayan əşyaların alınması və ya oğlan evinin qız evini, qız evinin də oğlan evini filan əşyanı almağa məcbur etməsi. Bu bir dava-qırğın.

Gələk toy gününə. Toyu əbədiləşdirmək üçün diskə və ya kasetə çəkdiririk (buna da ömrümüzdə bir dəfə və ya iki dəfə baxarıq). Yox, yalnız normal bir çəkiliş bizi qane etmir, ay bunun klipidi, şəhər mərkəzində cürbəcür formalarda reklamıdı, şəklidi, nə bilim nəyidir.

Məclis süfrələrimiz ayrı bir dərddir. Yeyiləcək-yeyilməyəcək nə varsa, əlimizə nə keçdisə tökürük süfrəyə ki, sonra da hamısını necə qoymuşduqsa eləcə də yığışdırırıq. Baş şişirən və yüksək səsindən nə dediyi anlaşılmayan musiqi başqa bir dərddir. Rəqs edənlərin də ki, nə cür rəqs etdikləri məlum deyil. Amma nə ola ki musiqini yarıda kəsəsən. Sən gör o zaman qan su yerinə axır ya axmır.

Ən əsas məsələlərdən biri də gəlinin geyimidir. Bu gün gəlinlərimiz elə bir gəlinlik geyinirlər ki, milli mentalitetimizə uyğun gəlmir. Üstəlik bu geyimə də yüzlərlə lari pul ödəyirlər. İşin qəribə yönü də orasındadır ki, bunu valideynlərin özləri də istəyir. Bu qədər pulun bir gecəlik geyim üçün çox baha olduğunu söylədikdə isə, bu gün gəlin hər kəsdən dəbli olmalıdır sözünü eşidərsən. Yuxarıda da vurğuladığımız kimi "Qonşudan qalma dala" prisipini şüar ediblər özləri üçün.

Son günlərdə məclisin sonunda məclisə AŞ gətirilir. Bu çox gözəl bir adətdir ki, Azərbaycan mədəniyyətini qoruyub saxlayan oğullarımız, qızlarımız var deyə düşünürsən. Amma nə yazıq ki, bu gözəlliyi də bərbad etdilər. Niyəmi? Çünki aşı "svanuri" musiqisi altında gətirirlər. Harda qaldı bizim gözəl VAĞZALImiz ki, "svanuri" rəqsi oynanaraq məclisə aş gəlsin?

**Bu mövzuları düşünməyi isə artıq sizin ixtiyarınıza buraxırıq.**

# QEYDİYYAT OLUNMADIQDA CƏRİMƏYƏ SƏBƏB OLACAQ FƏALİYYƏTLƏR



**Bir neçə gün əvvəl "OK&CG" vəkillər bürosuna biznesi İqtisadi İşlər üzrə Reyestrdə qeydiyyatda olmadığına görə dövlət tərəfindən 500 lari cərimələnən vətəndaş müraciət edib. Niyə? Ona görə ki, onun biznesinin İqtisadi İşlər üzrə Reyestrdə qeydiyyatdan keçməli olduğu haqqında məlumatı yox imiş. Qeyd olunan nümunədən dolayı "OK&CG" vəkillər bürosu iqtisadi fəaliyyətin nə olduğunu sizə izah edəcək. Biznes sahəsinin İqtisadi İşlər üzrə Reyestrdə qeydiyyatdan keçməsi nəyə lazımdır? Hansı sahənin qeydiyyatı məcburi və hansı könüllüdür?**

İqtisadi işlər anlayışı gəlir, qazanc və ya kompensasiya əldə etmək üçün həyata keçirilən bütün işlərə aiddir.

İqtisadi işlərin növləri və siyahısı Gürcüstan Milli Klassifikatorunda qeyd olunub. Siyahı Gürcüstanın Milli Statistika Xidməti tərəfindən hazırlanıb və təsdiqlənib. Qeyd olunan klassifikatora əsasən, iqtisadi iş onun vasitəsilə məhsul (mal və ya xidmət) əldə olunan prosesdir. Yalnız konkret məhsulu yaratmaq üçün resurslar birləşən zaman iqtisadi işin yeri var (qurğular, işçi qüvvəsi, texniki vasitələr).

**Gürcüstan Milli Klassifikatorunu harada axtara bilərik?**

Gürcüstan Milli Klassifikatoru 21 seksiyadan və 99 şöbədən ibarətdir. Onların hər biri istehsalçı subyektin həyata keçirə biləcəyi fəaliyyət növlərindən ibarətdir.

**Qeyd olunan fəaliyyət növləri:**

Kənd, meşə və balıq təsərrüfatı;

Mədən sənayesi və karxana emalı;

İstehsalat sənayesi;

Elektrik enerjisi, hava, buxar və kondensasiya olunmuş hava təchizatı;

Su təchizatı, kanalizasiya, tullantıların idarə edilməsi və çirklənmənin təmizlənməsi fəaliyyəti;

Tikinti;

Topdan və pərakəndə ticarət, avtomobillərin və motosikllərin təmiri;

Daşınma və saxlama;

Çatdırma vasitələri ilə ərzağın təmin edilməsi fəaliyyəti;

İnformasiya və kommunikasiya;

Maliyyə və sığorta fəaliyyəti;

Daşınmaz əmlakla bağlı işlər;

Peşə, elmi və texniki fəaliyyət;

İnzibati və köməkçi xidmətlərlə bağlı işlər;

Dövlət idarəçiliyi və müdafiə, məcburi sosial təhlükəsizlik;

Təhsil;

Səhiyyə və sosial xidmət fəaliyyəti;

İncəsənət, əyləncə, istirahət.

**Başqa növ xidmətlər:**

İşə götürülmüş şəxsin fəaliyyəti olaraq ev təsərrüfatlarının şəxsi istifadələri üçün fərqli olmayan məhsul istehsalı xidməti;

Xarici təşkilatların və orqanların fəaliyyəti.

**İndi isə reyestrə aid olanlar:**

2016-cı ilin 2 sentyabrından ictimai reyestrdə iqtisadi işlərin qeydiyyatını həyata keçirən yeni reyestr yarandı.

**- İqtisadi işlərin qeydiyyatında məqsəd nədir?**

İqtisadi işlərin qeydiyyat məqsədi ölkədə vahid fəaliyyətlər reyestrinin yaradılmasıdır. Bu, özlüyündə iqtisadi işlər bazarının araşdırılmasına, effektli siyasətin planlaşdırılmasına dəstək olur və ölkədə düzgün statistikanın yaradılmasını təmin edir.

**- İstehsalçı subyektin öz fəaliyyətini İqtisadi İşlər üzrə Reyetsrdə qeydiyyat etdirməsi məcburidirmi?**

İqtisadi işlərin növü iki kateqoriyaya bölünür:

Məcburi qeydiyyat – qanunvericiliyə əsasən məcburi qeydiyyata tabe olan fəaliyyət növləri.

**Məcburi qeydiyyat kateqoriyasına daxildir:**

- Ərzağın/heyvan qidalarının, heyvanın, bitkinin, heyvan və bitki mənşəli məhsulların, baytarlıq preparatlarının, pestiçid, aqrokimyəvi istehsal, ilkin istehsal, distribusiya, eləcə də baytarlıq və bitkilərin mühafizəsi sahəsində xidmətə bağlanan ərzağın/heyvan qidalarının təhlükəsizliyi, baytarlıq və bitkilərin mühafizəsi məcəlləsi ilə nəzərdə tutulmuş fəaliyyətlər.

- "Əmək miqrasiyası haqqında" qanunla nəzərdə tutulmuş, Gürcüstanın hüdudlarından kənarda əmək quruluşuna və ya əmək quruluşundakı yardıma bağlı olan fəaliyyət.

- Estetik və kosmetik prosedurlar həyata keçirilən "İctimai sağlamlıq haqqında" qanunla nəzərdə tutulmuş ictimai əhəmiyyət daşıyan müəssisələrin fəaliyyəti.

**Könüllü fəaliyyətlərin növləri – onların qeydiyyatı məcburi deyil.**

İqtisadi işlərin qeydiyyatı necə həyata keçirilir?

Qeydiyyat üçün səlahiyyətli şəxsin iqtisadi işlərin qeydiyyatı haqqında ərizəsi, fəaliyyətin növü və yeri (ünvanı) haqqında elektron məlumat agentliyə təqdim olunmalıdır.

**Beləliklə, nəzərə almaq lazımdır ki, iqtisadi fəaliyyətin qeydiyyat müddəti 1 ildir. Əgər maraqlanan şəxs qeydiyyat müddətinin davam etdirilməsi haqqında tələb təqdim etməzsə, 1 il sonra qeydiyyat haqqında qərarın qüvvəsini itirməsinə səbəb olur. Bu növ tənzimləmə göstəricilərin yenilənməsi və qeydiyyatdan keçmiş subyekt tərəfindən real olaraq həyata keçirilən işlər haqqında üçüncü şəxslər üçün məlumat əlçatanlığı məqsədi ilə reyestrdə dəqiq, etibarlı göstəricilərin təsvir olunması məqsədi daşıyır.**

## POLİS İNFRASTRUKTURUNUN YENİLƏNMƏSİ ÇƏRÇİVƏSİNDƏ REGİONAL POLİS ŞÖBƏLƏRİNƏ 180 YENİ YÜKSƏK SÜRƏTLİ POLİS AVTOMOBİLİ VERİLİB

Daxili İşlər Nazirliyi (DİN) polis infrastrukturunun yenilənməsi layihələrini davam etdirir. Layihə çərçivəsində Gürcüstanın polis avtoparkına 180 yeni yüksək sürətli polis maşını verilib.

Yeni maşınların təqdimat mərasimi Mtsxeta-Mtianeti polis departamentinin binasının ətraf ərazisində baş tutub. Tədbiri DİN naziri Giorgi Qaxaria açaraq polislərə müraciət edib:

"Ölkədə DİN-in effektli çalışan struktur olmasının nə demək olduğunu hamımız çox yaxşı başa düşürük. Bu, bizim hər birimiz üçün böyük məsuliyyətdir. Vətəndaşlarımızın sağlamlığına və həyatına cavabdeh oluruq, ancaq onu da yaxşı başa düşürük ki, bunun üçün bizə uyğun infrastruktur – hər bir polisin öz işini layiqli şəkildə yerinə yetirməsi üçün lazım olan hər şey lazımdır.

Nəqliyyatın böyük hissəsi məhz bölgələrə göndəriləcək və bölgələrdə təchizat çatışmamazlığı, texnika və nəqliyyat kimi problemlər yavaş-yavaş həllini tapacaq. Ancaq hər şeylə yanaşı onu da başa düşürük ki, tək təchizt yetərli deyil. Ən önəmlisi polisin işinə yanaşması, bizim həmkarlarımızın hər birinin ölkəmizi və vətəndaşlarımızı qorumaq üçün çalışmasıdır".

Tədbirdə daxili işlər nazirinin müavinləri, nazirliyin müxtəlif departamentinin rəhbərləri və Mtsxeta-Mtianeti qubernatoru Şalva Kereselidze iştirak edib.

Yeni polis avtomobilləri ölkə miqyasında müxtəlif bölgələrin polis şöbələrinə göndərilib. Avtomobillər yüksək sürətli və xüsusi olaraq çətin relyefli şərait və ehtiyacı nəzərə alaraq bölgələr üçün seçilib.

DİN-in reformaları prosesində üstünlüklərdən biri bölgələrdə polis fəaliyyətinin daha da inkişaf etdirilməsi və onun effektli şəkildə yüksəldilməsidir. Bunun üçün müəssisə polis infrastrukturunun yenilənməsinin uzunmüddətli layihəsini həyata keçirir. DİN bu istiqamətdə bir neçə vacib layihəni artıq başa vurub.

Qeyd edək ki, DİN avtoparkın yenilənməsinə cari ilin fevralından Yaponiya müəssisəsinin 96 hibrid avtomobil və elektrik maşını verməsindən sonra başlayıb.

Polis infrastrukturunun yenilənməsi layihəsi müasir, siyasi baxımdan neytral, etibarlı və effektli polisin formalaşmasına dəstək olur. Bunun nəticəsində isə müəssisə əməkdaşları etibarlı sosial və əmək şərtləri ilə maksimum dərəcədə təmin olunacaqlar.

## GÜRCÜSTANIN DAĞLIQ REGİONLARININ YENİ TEXNOLOGİYA İLƏ QAZLAŞDIRILMASI HƏYATA KEÇİRİLƏCƏK

İqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kabulia və "SOCAR Energy Georgia"nın baş direktoru Mahir Məmmədov əməkdaşlıq memorandumu imzalayıblar. Memorandum Gürcüstanın dağlıq regionlarında əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması və turistik rayoların inkişafı yönündə isitmə ehtiyatının alternativ imkanlarını təklif etmək istiqamətindədir. Memorandum SOCAR-ın "Yaşıl təşəbbüs"ü çərçivəsində imzalanıb.



İmza mərasimində Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Natia Turnava və başqa rəsmi şəxslər iştirak ediblər.

"Biz SOCAR-ın belə maraqlı və ən əsası "yaşıl" iqtisadiyyatla bağlı olan təşəbbüsünü alqışlayırıq",- deyə Giorgi Kobulia bildirib.

"Yaşıl təşəbbüs" çərçivəsində SOCAR şirkəti artıq pilot layihəni kurort sahəsi olan Sairmedə həyata keçirib. Layihə kurort sahəyə qazın ötürülmə modullu konteynerlərlə verilməsini nəzərdə tutur. Onlar alman texnologiyası ilə mürəkkəb materialdan düzəldilib. Qeyd olunan konteynerlərlə Sairme və başqa dağlıq məntəqələrə sıxılmış şəkildə olan qazın ötürülməsi və sonra məntəqənin borularına qazın dekompressiyası həyata keçiriləcək.

"SOCAR Energy Georgia" şirkətinin baş direktoru Mahir Məmmədovun bəyanatına görə, şirkət qeyd olunan metoddan Gürcüstanın dağlıq məntəqələrinin qazlaşdırılması prosesində istifadə etməyi planlaşdırır. Çünki dağlıq yerlərdə ənənəvi qaz boru kəmərinin tikilməsi səmərəli deyil.

"Sairmedə qazlaşdırmanın standart sxemi ilə getsək 8 dəfə artıq maddi resurs xərclənməli idi. Ancaq ötürülmə modulundan istifadə edərək layihə daha ucuz və qənaət baxımından səmərəli oldu", - bildirib Mahir Məmmədov. Onun sözlərinə görə, qeyd olunan texnologiyanın qüvvəyə minməsi isitmə məqsədi ilə dağlıq zonalarda ağac-meşə qırılmasını əhəmiyyətli dərəcədə azaldacaq.

# BAŞ VƏ APARICI MÜƏLLİM STATUSU MÜDDƏTSİZ OLMAYACAQ – SXEMDƏ PLANLAŞDIRILAN YENİLİKLƏR NƏ ZAMAN QÜVVƏYƏ MİNƏCƏK?

Müəllimlərin peşəkar inkişafı və karyerada irəli getməsi sxeminə qoşulmuş pedaqoqların son zamanlar əsas sualı statusun saxlanılması ilə bağlıdır. "Baş müəllim statusu artıq müddətsizmi olub?", "Nə zaman biləcəyik ki, statusu saxlamaq üçün kredit toplamalıyıq ya yox? Sxemdə dəyişiklikləri aylardır ki, gözləyirik" – müəllimlər oxşar suallar verirlər. Bu gözləntiyə isə sxemin dəyişiklikləri haqqında hazırlanmış layihə səbəb oldu. Layihə Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə təsdiqlənmək və hökumətə çıxarılmaq məqsədi ilə 2018-ci ilin mart ayında göndərilib və məhz orada yazılmışdı ki, müəllimlərin statusunu itirmək təhlükəsi yoxdur.

Layihə ilə sxemdə bəzi dəyişikliklər nəzərdə tutulmuşdu. Onlardan birinin məzmununu isə Müəllimlərin Peşəkar İnkişafı Mərkəzinin keçmiş rəhbəri belə izah etmişdi:

"Yenilik baş və aparıcı müəllim statusu daşıyan müəllimlər üçün statusun saxlanılması ilə bağlı nəzərdə tutulub. Qüvvədə olan sxemə əsasən, statusu saxlamaq üçün baş müəllim 13, aparıcı müəllim isə 17 kredit toplamalıdır. Dəyişikliklərə görə, bu ehtiyac minimuma ednириləcək və onların statuslarını itirmək riski olmayacaq. Yalnız daxili müşahidə dərsinin keçirilməsindən söhbət gedir. Görək yekunda nə qərar veriləcək".

Yekun qərar isə mərkəzin rəhbərinin müavini Manana Ratianinin dediyinə görə, güman ki, yeni ilə qədər məlum olacaq, lakin "müddətsiz status" olmayacaq.

"Müddətsiz baş müəllim statusu olmayacaq, konkret şərtlərlə statusu saxlamaq mexanizmi əvəz olunacaq. Güman ki, bu ilin sonuna qədər dəyişikliklər qəbul edəcəyik. Bu gün mövcud olan müəllim statusunun saxlanılması tənzimləmələri fərqli qaydada qüvvəyə minəcək. Bunun keçid dövrü də olacaq, çünki dəyişikliklər tədris ilinin ortasında baş verəcək. Belə ki, indiki mərhələdə müəllimlər sxemdə olan statusun saxlanması ilə bağlı tələbləri yerinə yetirməməlidirlər. Bu gün onların statusun saxlanılması kimi bir ehtiyacı yoxdur. Statusun dəyişdirilməsini planlaşdırırlarsa, əlbəttə, adi şəkildə irəli getməyə davam edəcəklər", - izah edir Manana Ratiani.

O, bir daha qeyd edib ki, müddətsiz status olmayacaq, çünki bütün həyata keçirilmiş və keçiriləcək dəyişikliklər keyfiyyətli təhsilə dəstək olmalıdır.

"Müddətsiz status, əlbəttə, olmayacaq. Statusun saxlanılması üçün müəyyən şərtlər olacaq, amma bu, indiyə kimi olan şərtlər olmayacaq. Çünki bizim üçün müəllimin tədris mühitində nə etdiyi, keyfiyyətli təhsil üçün şagirdlərlə necə davrandığı vacibdir. Düşünülmüş və birmənalı şəkildə tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş şərtlər olacaq.

Dəyişiklikləri qəbul edən zaman (noyabr-dekabrda), əlbəttə, məlumatlandırma



üçün davamlı olaraq konsultasiyalar, video təlimatların hazırlanmasına başlanılacaq və müəllimlərin bu haqda məlumat alması üçün ənənəvi olaraq bunların hamısına bütün mexanizmlər qoşulacaq", - bildirib Manana Ratiani.

Bu günün göstəricilərinə əsasən, sxemdə 501 aparıcı və 24 381 baş müəllim var. Göstəricilər hər ay dəyişir və yekun nəticələr dekabr ayında müəyyən olunacaq.

## MİXEİL BATİAŞVİLİ: "İZRUNE.GE"YƏ BƏNZƏR LAYİHƏ GÜRCÜSTANDA TAPILMAZ VƏ DÜNYADA DA AZDIR"



Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyində yeni tədris platforması izrune.ge-nin təqdimatı keçirilib.

Tədbirdə izrune.ge-nin həmfikiri olan Tbilisinin 70 uğurlu məktəbinin bütün direktorları, məktəb şagirdləri və onların valideynləri iştirak ediblər.

Görüşün məqsədi valideynlərin məktəb həyatına sistematik qoşulması ehtiyacı və bunun üçün izrune.ge saytından istifadə etmənin əhəmiyyəti və vacibliyinin ilk nəticəsinin müzakirəsi və yekunlaşdırılması; izrune.ge-yə qoşulmuş uğurlu məktəblərin nəticələrinə dair rekomendasiyaların işlənilməsi və Gürcüstanın bütün məktəblərinə çatdırılmasıdır.

Görüşdə təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili çıxış edib və layihənin əhəmiyyətindən danışıb.

"Uşağın təhsilindən önəmli heç nə yoxdur. Ən çox ona sevinirəm ki, bizim məktəblər və pedaqoqlarla birgə bu prosesə qoşulmuş və ən aktiv iştirakçılardan biri cənab Qoça Tğeşelaşvilidir. İzrune.ge-yə bənzər layihə Gürcüstanda tapılmaz və dünyada da sayı azdır.

Cənab Qoçaya təşəkkür edirəm ki, illər ərzində öz komandası ilə birgə bu qədər əmək qoyub. Hamısı isə uşaqların təhsilə motivasiyasına xidmət göstərir. Bundan vacib və yaxşı iş ola bilməz və onlarla, yüzlərlə uğurlu uşaqlarımız cənab Qoçanın və onun komandasının xidmətidir. Onları artıq bütün Gürcüstan tanıyır.

Ona görə də, düşünürəm ki, bu gün burada bu layihənin bir hissəsisiniz, çünki regionlarda dolu zal görmüşəm və bu, hər şeydən vacibdir. Sevindirici haldır ki, daha çox uşağın bu layihəyə qoşulması valideynləri, müəllimləri və direktorları maraqlandırır.

Bu, Gürcüstanda çox dəyərli işdir və bizim tərəfimizdən bu layihəyə dəstək və həvəsləndirmə olacaq. Sevinirəm ki, bu gün buraya toplaşmış bu qədər adam görürəm və layihəyə, ölkəmizə uğurlar arzulayıram. Təhsildə bizə çox uğur lazımdır, çünki bizim ölkənin gələcəyi təhsil üzərində durur", - deyə M.Batiaşvili bildirib.

## GÜRCÜSTANDA TƏHSİLİNİ DAVAM ETDİRMƏK ÜÇÜN DAHA ÇOX HANSI ÖLKƏLƏRDƏN TƏLƏBƏLƏR GƏLİRLƏR



2017-2018-ci tədris ilində Gürcüstana 10000-dən çox xarici tələbə gəlib. Gürcüstan təhsillərini davam etdirmək üçün Hindistan, Nigeriya və İraq ölkələrinin tələbələrinə ən cazibəli yerdir.

Qeyd edək ki, son 5 tədris ili ərzində xaricdən Gürcüstana təhsil üçün gəlmiş tələbələrin sayı demək olar ki, 3 dəfə artıb. Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, 2013-2014-cü tədris ilində Gürcüstana 3420 xarici tələbə gəlib. 2014-2015-ci tədris ilində - 4780; 2015-2016-cı tədris ilində - 6643; 2016-2017-ci tədris ilində - 8012; 2017-2018-ci tədris ilində isə 10074 tələbə gəlib.

Milli Statistika Xidmətinin məlumatına görə, Gürcüstanda təhsilini davam etdirmək üçün ən çox xarici tələbələr sonrakı ölkələrdən gəlir:

Hindistan - 3824 tələbə;
Azərbaycan - 2702 tələbə;
İraq - 821 tələbə;
Nigeriya - 337 tələbə;
Rusiya - 257 tələbə.

## DƏRSLİKLƏRİN MƏKTƏBLƏRƏ VERİLMƏSİ NİYƏ GECİKİR VƏ NİYƏ PEDAQOQLARIN SEÇDİKLƏRİ KİTABLAR ƏVƏZİNƏ BAŞQALARI GÖNDƏRİLİR?

I-VI siniflər üçün yeni hazırlanmış dərslikləri pedaqoqlar və ekspertlərin bir hissəsi yenidən aktiv şəkildə tənqid edir. Məlum olduğu kimi kitabların məzmunu ilə birgə dərsliklərin verilməsi də problemdir.

Məsələ ilə bağlı etaloni.ge saytına bir neçə narazı olan müəllim müraciət edib. Onların sözlərinə görə, çox hallarda məktəblərə müəllimlərin sifariş verdiyi müəlliflərdən fərqli müəlliflərin dərsliklərini aparırlar, həmçinin kitabların məktəblərə verilməsi gecikdirilir.



"Sifariş verdiyimiz heç bir dərslik gəlmədi. Özləri istədiklərini göndərdilər. Gürcü dili, riyaziyyat, təbiət və ingilis dili dərsliyi gəldi. Oktyabr başa çatır və birinci sinif üçün incəsənət, musiqi hələ də gəlməyib", - pedaqoqlardan biri yazır.

Qeyd olunan səhvlərin səbəbini etaloni.ge təhsil, elm, mədəniyyət və idman üzrə müvafiq xidmətdən araşdırmağa cəhd göstərdi. Məktəblər hələ də müəyyən dərsliklər gözləyirlər və məktəblərin tam yeni kitablarla təmin olunması nə zaman başa çatacaq sualımıza Təhsil və Elmi İnfrastrukturun İnkişafı Agentliyindən bildirdilər ki, dərsliklərin birinci hissəsi ilə bütün məktəblər artıq təmin olunub, əlavə dərsliklərin verilməsi ehtiyacı isə şagirdlər kütləvi şəkildə başqa məktəbə keçən zaman olur.

"Bütün ictimai məktəblər dərsliklərin birinci hissəsi ilə təmin olunub. Ehtiyac olan zaman isə əlavə dərsliklər verilir. Bu ehtiyac şagirdlərin kütləvi olaraq başqa məktəbə keçməsi zamanı olur. İkinci və üçüncü hissələrin verilməsi isə cari ilin 10 noyabrında başlayacaq və müqavilə ilə nəzərdə tutulmuş müddətdə, yəni ilin sonuna qədər başa çatacaq", - agentlikdən bildiriblər.

Müəllimlərin seçdikləri dərsliklərdən fərqli dərsliklərin aparılmasına dair agentlikdən bildiriblər ki, onlar kitabları təhsilin idarəsinin məlumat sistemi tərəfindən verilmiş bazaya əsasən göndərirlər.

Birinci sinfin musiqi və incəsənət kitabları ilə əlaqədar Tədris və Elmi İnfrastrukturun İnkişaf Agentliyinin izahatı belədir: "Nazirin 2017-ci il, 27 iyun N575 sərəncamı əsasında ibtidai pillə üzrə məktəb dərsliklərinə rəsmi qərar verildi və onun şərtləri müəyyən olundu. Bu sərəncama əsasən, dərsliklərin seriyaları üçün seçilmiş vahidlər müəyyən edildi. Sərəncama əsasən, birinci, ikinci siniflər üçün təsviri və tətbiqi incəsənət və musiqi dərsliklərinin komplektlərinin tərkibi müəllim kitabı üçün elektron resursu nəzərdə tutur", - agentlik tərəfindən verilmiş məlumatda bildirilir.

# AİLƏ İNSTİTUTUNDA XƏYANƏT İNQİLABI



**Həmid SADIX**
Kalinin ictimai məktəbinin köməkçi müəllimi

İcmamız deqradasiyaya uğrayıb. Öz aramızda danışaq. Artıq məsələni dedi-qodu səviyyəsində yox, ictimai müstəvinin tən ortasına pərçimləyib ciddi düşünmək lazımdır.

Ailə institutu ilə fəxr edən, "namuslu ailə" emblemini digər xalqların gözünə dürtən bir xalqın gözə dürtdüyü həmin o "namuslu ailə", "möhkəm ailə" plakatı parça-parça oldu. Kimmi deyir? Sübutmu lazımdır? Qulaqlarınızı ovcumuza silkələyib həqiqətin çirkinliyini görəndə məsələnin nə yerdə olduğunu biləcəksiniz.

Sizin "möhkəm ailə", "namuslu ailə" lövhəniz texniki bum qarşısında çartladı, tən ortadan, 77 yerə bölündü. Hər tikəsi bir mobil telefon sxemi boyda oldu.

Xəyanət inqilabı nədir? Tərifini tərəfimdən ərz eləyim: Xəyanət inqilabı zorla ərə verilmiş, uşaqkən ərə verilmiş, evləndirilmiş yox, məhz ərə verilmiş, zorla qaçırılmış, uşaqkən qaçırılmış, fikri-düşüncəsi formalaşmamış qaçırılmış qızların çıxdığı ailə ilə getdiyi ailənin eldə-obada məşhur olan kəlimə ilə desək "papağını yerə soxub" başqası ilə qoşulub qaçmasına deyilir.

Siz günahın bütövlüklə qaçanda olduğunu düşünün, sizə problemin şah damarına gələn qanın mənbədən mənsəbə gedən xəritəsini cızım. Problem öz mənbəyini ailələrdəki qız uşaqlarını adam saymamaqdan götürür. Problem mənbəyini ailədə "Qız yükü, duz yükü", "Qız gözünü yad qapıda açır", "Qıza pul xərcləməyə dəyməz, gedib özgə çırağını yandıracaq" söhbətlərinin ardınca verilən qərarlardan doğur. Qərarlar da bunlardır: rahat nəfəs almaq qadağası, səsini çıxarmaq qadağası, özünü inkişaf etdirmək qadağası, öz addımını atmaq qadağası, təhsil almaq qadağası, öz seçimini etmək qadağası, ömrünün axırınacan birgə yaşayacağı insanı toyundan-nişanından əvvəl tanımaq qadağası, rahat yaşamaq qadağası.

İstənilən hər hansı hadisəni nəticələndirən onun özündən əvvəl gələn səbəbləri var. Səbəbsiz heç nə olmur. İnqilab da bir hadisə növüdür, onu nəticələndirən səbəblər var. Hansı ki, zamanla yığılır-yığılır partlayışa səbəb olur. İnsanın psixologiyası elədir ki, daima haqsızlığa məruz qaldığında onu o həyat tərzinə urcah edən insanın "sinəsinə dağ çəkmək üçün", "heyfini çıxmaq üçün" ən qatı qərarlar verə bilir, intiqam almaq yanğısı ilə qatı qərarlar verərək onun bədbəxt olmağında səbəbkar gördüyü insanların tərəfindən vaxtı ilə ona qoyulmuş qadağaları aşmağa başlayır, ondan da o yana keçir. Yoxsa, mümkün deyil ki, insan özünü xoşbəxt hiss etdiyi mühiti dağıda gedə.

Dediyimiz odur ki, təriflədiyiniz ailə institutu çart verdi. Çünki ailəni əlverişli şəraitdə lazımi vasitələrin, ləvazimatların olmadığı halda, sementi hazır olmadığı halda, tez-bazar tikməyə, tikdirməyə çalışılırdı. Bu cür isə çox davam edə bilməzdi, mütləq haradasa çart verməli idi. Verdi də. Və çartları yer kürəsinin ömrü qədər ömrünüz olsa belə aradan qaldıra bilməyəcəksiniz.

Artıq hər gələn nəsil özündən əvvəlkilərin bədbəxtliyini daha çılpaq görür. Başqalarının xoşbəxtliyinə həsədlə, həsrətlə baxıb, mən də onlar kimi xoşbəxt ola bilərdim kəlməsini qulaqlarınıza çığıracaq dərəcədə bezliblər.

Artıq o dövr deyil. Əvvəl durduğun yerdən baxanda məhəllənin sonu görünmürdü, indi Yer kürəsinin qurtaracağı yer də görünür. Artıq insanlar başqalarının öz seçimləri ilə necə xoşbəxt yaşadıqlarını öz bədbəxt həyatlarının çirkli aynalarından boylanarkən görürlər. Artıq sxemlər xəyanət adlandırdığımız qərarı həyata keçirməyi daha da asanlaşdırıb. Artıq onlar ən axırıncı addımları ilə onları özünü bədbəxt hiss etdiyi mühitə salanları "yandırıb-yaxaraq" intiqamlarına nail olmaq istəyi əvvəlkindən qat-qat daha asan olub.

Qoyun övladlarınız öz addımlarını atarkən yıxılsınlar, siz onlar üçün yaxşı olacağını düşündüyünüz səmtə itələyərkən yox. Birinci halda sizin onu qaldırmaq üçün uzatdığınız əllər geri itələnəcək, rədd ediləcək; ikinci halda isə əksinə, o əllərdən öpüləcək.

Ailə institutunu qorumaq istəyirsizsə, "el içində biyabır olmaq istəmirsinizsə", icazə verin övladlarınız bədbəxt olsalar belə öz sevdikləri insanlarla bədbəxt olsunlar, sizin onlar üçün seçdiyiniz insanlarla yox. Birinci halda özlərini günahkar sayacaqlar, sizə qarşı sevgiləri azalan deyil. İkinci halda isə sizi günahkar sayacaqlar, sizə nifrət etməyə başlayacaqlar. Və hər dəfəsində bu nifrət böyüyəcək və sizi son nəfəsinizəcən nifrət baxışları ilə süzəcəklər, dünyanızı dəyişdikdən sonra isə nifrətlə yad edəcəklər.

Övladlarınıza yaşamağa icazə verin, onları öldürməyin. Onsuz da həyat elə uzun deyil.

## BMT-NİN UŞAQ FONDUNUN ARAŞDIRMASI: GÜRCÜSTANDA 2-6 YAŞA QƏDƏR UŞAQLARIN 30%-İ UŞAQ BAĞÇASINA GEDƏ BİLMİR

BMT-nin Uşaq Fondunun məktəbəqədər tədris üzrə mütəxəssisi Ana Canelidze "Məktəbəqədər təhsilin keyfiyyətinin" araşdırmasının nəticələrini təqdim edib. Nəticəyə əsasən, Gürcüstanda 2-6 yaşa qədər uşaqların 30%-i pulsuz məktəbəqədər təhsil ala bilmir.

Onun dediyinə görə, BMT-nin Uşaq Fondu İmtahanlar və Qiymətləndirmə üzrə Milli Mərkəzlə birgə 2017-ci ildə araşdırmaya başlayıb və araşdırma bu il başa çatıb.

Araşdırma çərçivəsində bütün bələdiyyələrin nümayəndələri, eləcə də fokus qruplar, uşaq bağçalarının direktorları, tərbiyəçilər və valideynlər sorğuda iştirak ediblər.

Araşdırma 5 müxtəlif istiqamətdən ibarət olub. Onlardan biri 2-6 yaşa qədər olan uşaqlara məktəbəqədər tədris müəssisəsinin əlçatanlığı məsələsinin araşdırılmasıdır.

"Araşdırmanın nəticələrini 5 müxtəlif sahəyə bölə bilərik. Birinci, əlçatanlıq məsələsidir ki, 2-6 yaşlı uşaqlara uşaq bağçasında pulsuz məktəbəqədər təhsil almaq nə qədər əlçatandır.

Araşdırma göstərib ki, bu kateqoriyaya aid olan uşaqların 30%-i məktəbəqədər müəssisələrə qoşulmayıblar. Səbəblər isə araşdırmada aşkarlanmayıb. Bələdiyyələrin əksəriyyətində, həmçinin şəhərlərdə və Tbilisidə ailələrin istəyi var, ancaq uşaq bağçalarında fiziki olaraq yerlər yoxdur. Bəzi kəndlərdə isə ümumiyyətlə bağça yoxdur və ona görə də məktəbəqədər təhsildən istifadə edə bilmirlər.

Neçə kənddə bağçanın olmaması haqqında bizim göstəricimiz yoxdur, amma kənddə yaşayan uşaqların neçə faizinin bağçaya getməməsi haqqında göstəricimiz var və bu, 46%-dir" - deyə Ana Canelidze bildirib.

Onun sözlərinə görə, sosial müdafiəsiz ailələr və milli azlıqların uşaqlarına məktəbəqədər təhsil daha az əlçatandır. Etnik azlıqların yalnız 33%-nə məktəbəqədər təhsil əlçatandır. Sosial müdafiəsiz ailələrin uşaqlarının isə yalnız 50%-i bağçaya gedir.

## BU İL PEŞƏ MƏKTƏBLƏRİNDƏ TƏHSİL ALMAQ İSTƏYƏNLƏRİN SAYI ARTIB

Bu il dövlət peşə kolleclərində olan 5853 vakant yer üçün 10850 aplikant müraciət edib. Təhsil Nazirliyinin məlumatına görə, oktyabrın 3-dən 19-a kimi olan payız qeydiyyatında abituriyentlərin 300-ə qədər proqrama qeydiyyat olmaq imkanı olub. Nazirliyin məlumatına əsasən, təhsil almaq istəyənlərin sayı ən çox aşpazlıq peşəsində qeydə alınıb. Aşpazlıq üçün 320 yer olduğu halda 1359 nəfər ərizə daxil edib. Müvafiq olaraq bir yerə 4,25 namizəd düşürdü.

Aşpazlıqdan sonra ən çox tələbat olan ixtisaslar:

- İnformasiya texnologiyalarına dəstək – Qeydiyyat olunanların sayı-1155, yer sayı-367, müsabiqə-3.15;
- Veb-interfeys developeri – Qeydiyyat sayı-767, yer sayı-102, müsabiqə-7.52;
- Elektrik – Qeydiyyat sayı-635, yer sayı-339, müsabiqə-1.87;
- Kulinariya sənəti – Qeydiyyat sayı-605, yer sayı-108, müsabiqə-5.60;
- Uşaq bağçası üçün tərbiyəçi-pedaqoq – Qeydiyyat sayı-540, yer sayı-169, müsabiqə-3.20;
- Ofis işi – Qeydiyyat sayı-453, yer sayı-135, müsabiqə-3.36;
- Mühasibat işi – Qeydiyyat sayı-398, yer sayı-107, müsabiqə-3.72;
- Tikiş üzrə mütəxəssis – Qeydiyyat sayı-384, yer sayı-164, müsabiqə-2.34;
- Gömrük işi – Qeydiyyat sayı-365, yer sayı-53, müsabiqə-6.89;

Peşə məktəbində təhsil almaq istəyənlərin testləşdirilməsi cari ilin 4 noyabrında keçiriləcək, dərslər isə noyabrın son tarixlərində başlayacaq.

Özəl müəssisələrdə qeydiyyat prosesi 31 oktyabra qədər davam edəcək.

## MARNEULİDƏ "GƏLƏCƏK" ADLI YENİ TƏHSİL MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLAYIB




Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili Marneulidə yeni açılmış "Momavali" ("Gələcək") adlı özəl beynəlxalq təhsil mərkəzini ziyarət edərək mərkəzdə yaradılmış şəraitlə tanış olub, şagirdlər, onların valideynləri və müəllimlərlə söhbət edib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, Marneuli rayonunun rəhbər şəxsləri, "SOCAR Georgia Gas" şirkətinin direktoru Azər Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

M.Batiaşvili çıxışında təhsil mərkəzində tədrisin gürcü dilində aparılmasının əhəmiyyətini vurğulayıb. "Mərkəzdə çalışan müəllimlərin əksəriyyətini gənc kadrlar təşkil edir. Bu cür uğurlu layihənin həyata keçirilməsinə dəstək göstərmiş donor təşkilatlar və özəl sektora minnətdarlığımı bildirirəm. Marneuli kimi çoxmillətli rayonda gürcü dilinin tədrisi dövlət əhəmiyyəti kəsb edir", - deyə M. Batiaşvili bildirib.

Qeyd edək ki, təhsil mərkəzi Bolqarıstanın Gürcüstandakı səfirliyi və Avropa İttifaqının dəstəyi ilə açılıb. Mərkəzin nəzdində uşaq bağçası da fəaliyyət göstərir. Marneuli və Tbilisidən olan gənc və təcrübəli müəllimlərin çalışdığı təhsil mərkəzində hazırda 150-yə yaxın şagird təhsil alır ki, onların da əksəriyyətini etnik azərbaycanlılar təşkil edir. 500 şagird üçün nəzərdə tutulmuş müasir təhsil mərkəzi bu ilin sentyabrından fəaliyyətə başlayıb.

## RUSTAVİ ŞƏHƏRİNDƏ BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN REGİONAL MƏRKƏZİ YARADILACAQ



Rustavi şəhərində Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) regional mərkəzi inşa olunacaq. Bu məsələ BQXK-nin Çindəki təmsilçiliyinin nümayəndələri ilə Rustavi meriyasında keçirilmiş görüşdə müzakirə olunub.

Regional mərkəzdə BQXK-nin anbarı ilə yanaşı, təlim-tədris mərkəzinin də inşası nəzərdə tutulub.

Görüşdə iştirak edən Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili bildirib ki, Rustavi şəhərində regional mərkəzin inşası üçün sahə ayrılacaq.

BQXK-nin Gürcüstan nümayəndəliyinin baş katibinin müavini Kaxa Mamuladzenin sözlərinə görə, təbii fəlakətlər zamanı regional mərkəzdən yalnız Gürcüstan üçün deyil, Azərbaycan və Ermənistan üçün də istifadə olunacaq.

"Rustavi şəhər meriyası və Kvemo Kartli bölgəsinin rəhbərliyi bizimlə əməkdaşlığa hazırdır. Biz bu konsepsiyanı birgə inkişaf etdirəcəyik. Təlim-tədris mərkəzinin də yaradılması təbii fəlakətlərə hazırlığın səviyyəsinin yüksəldilməsi baxımından çox vacibdir", - deyə K. Mamuladze bildirib.

## TALAVERİ KƏNDİNDƏ DAXİLİ AVTOMOBİL YOLUNUN YENİDƏN QURULMASINA BAŞLANILIB

Talaveri kəndində daxili avtomobil yolunun yenidən qurulmasına başlanılıb. Talaveri kəndində cari ilin sonuna qədər 925 metr uzunluğunda, 18 sm qalınlıqda beton yol çəkiləcək. İnfrastruktur layihəsini tenderdə qalib gələn şirkət yerinə yetirəcək. İndiki mərhələdə ağır texnika hazırlama işlərini həyata keçirir. Layihə regionlarda həyata keçirilən layihələr fondu və yerli büdcənin maliyyə dəstəyi ilə həyata keçiriləcək. Layihənin ümumi dəyəri 700000 laridir.

# QARDABANİDƏ 15 MİLYON LARİ DƏYƏRİNDƏ İNFRASTRUKTUR İŞLƏRİ HƏYATA KEÇİRİLİR

Qardabani bələdiyyəsində cari ildə 15 milyon lari dəyərində infrastruktur işləri həyata keçirilir.

İndiki mərhələdə 13 kənddə artıq daxili yollara asflat qatının çəkilməsi işləri başa çatıb. İşlər ümumilikdə 35 km-ə qədər bərpa edilmiş yolu nəzərdə tutur. Muxranteleti kəndində də yol bərpa işləri başa çatıb. Hazırda orada yol nişanlarının montajı həyata keçirilir. İşləri tenderdə qalib gələn MMC "İberiya" tikinti şirkəti 324 699 lariyə həyata keçirir.

Eyni zamanda Zemo Teleti kəndində davamlı olaraq uşaq bağçasının tam bərpası işləri gedir. Bağçanın bayır fasadı qurulub və qapı-pəncərələri montaj edilib. Hazırda istilik sisteminin montajı həyata keçirilir. Qeyd olunan uşaq bağçasında bərpa işləri başa çatdıqdan sonra 200-ə qədər uşağa xidmət göstəriləcək. Bələdiyyə uşaq bağçasına 338 193 lari xərcləyib. Ümumilikdə isə Qardabani bələdiyyəsi miqyasında 23 uşaq bağçasında bərpa işləri həyata keçirilir.

Həmçinin Kalinin, Birlik, Təzəkənd və Botanika kəndlərinin gəncləri üçün nəzərdə tutulmuş mini stadionun tikinti işləri gedir. Teleti kəndində də stadionun tikintisinin əsası qoyulub. İndiki mərhələdə beton örtüyünün qurulması işləri gedir və işləri tenderdə qalib gələn MMC "Kvadreli" şirkəti yerinə yetirir. Kombinasiya edilmiş stadionun tikintisi üçün yerli büdcədən 142 904 lari ayrılıb.

2018-ci ildə planlaşdırılmış infrastruktur layihələri çərçivəsində Qardabani şəhərində çoxmərtəbəli binaların dam örütüyü işləri aparılır. İşləri MMC "Bermuxa" yerli büdcədən ayrılmış 185 581 lari dəyərində məbləğlə həyata keçirir.

Davamlı olaraq Qardabani şəhərində kilsənin ətraf ərazisində səkilərin və piyadalar üçün yolun qurulması işləri gedir. İşləri tenderdə qalib gələn MMC "New Georgia" şirkəti həyata keçirir. Layihə üçün yerli büdcədən 235 965 lari ayrılıb.

Cari ildə Qardabani bələdiyyəsində ümumilikdə 50-yə qədər böyük və kiçik növ infrastruktur layihələri həyata keçirilir. İşlərin 70% artıq başa çatıb.

# ŞOTA REXVİAŞVİLİ "VAHİD QAFQAZ"IN TƏŞKİLATÇI QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜB



Kvemo Kartli qubernatoru Şota Rexviaşvili müavini Kaxa Koberidze ilə birgə "Vahid Qafqaz" festivalının təşkilatçı qrupunun üzvləri ilə görüşüb.

Tərəflər beynəlxalq tədbirin gələcək perspektivlərindən danışıblar və ikitərəfli əməkdaşlıq çərçivəsində gələcəkdə həyata keçiriləcək təklifləri müzakirə ediblər. "Vahid Qafqaz – 2019"un keçirilməsi üçün iki bələdiyyə – Marneuli və Bolnisi bələdiyyələri müəyyən edilib.

Görüşdə həmçinin festivalın gedişatı prosesində regionun başqa bələdiyyələrinin qoşulması və yerli resurun istifadə olunması ehtiyacından da söhbət açılıb.

Şota Rexviaşvilinin izahatına görə, bölgə administrasiyası festivalın uğurlu keçməsi üçün bütün təşkilatçılıq məsələlərinə maksimum dərəcədə qoşulacaq. Qubernatorun təşəbbüsü ilə artıq təşkilatçı qrupun üzvlərinin bələdiyyələrlə və məqsədli təşkilatlarla görüşü planlaşdırılıb.

Qeyd edək ki, festival dörd il ərzində Marneuli bələdiyyəsində keçirilib, cari ildə isə tədbir Bolnisidə baş tutacaq.

"Vahid Qafqaz"ın məqsədi regionda olan turistik potensial, etno-mədəni resurs və coğrafi yerləşmədən istifadə edərək multikultural münasibətlərin daha da möhkəmləndirilməsinə və inteqrasiya prosesinə dəstək olmaqdır.

## RUSTAVİDƏ FUTBOL AKADEMİYASI AÇILIB



Oktyabrin 24-ü Rustavi şəhərində beynəlxalq standartlara uyğun olan futbol akademiyasının açılışı olub. Tədbirdə Gürcüstanın baş naziri Mamuka Baxtadze, parlamentin sədri İrakli Kobaxidze, paytaxt meri Kaxa Kaladze, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Futbol Federasiyasının prezidenti Levan Kobiaşvili və digər rəhbər şəxslər iştirak ediblər.

Ümumi dəyəri təqribən 20 milyon larini təşkil edən layihə Gürcüstan Futbol Federasiyası, UEFA-nın "HatTrick" və FİFA-nın "Forward" proqramlarının maliyyə dəstəyi ilə həyata keçirilib.

6 hektar ərazidə yerləşən futbol akademiyasında iki təbii örtüklü və iki süni örtüklü meydança fəaliyyət göstərəcək. Ərazidə iki bina var. Birinci 108 nəfər üçün nəzərdə tutulub və orada yetirmələr üçün yataq otaqları və əyləncə guşəsi qurulub. Həmçinin yeməkxana, tədris auditoriyası, konfrans zalı və təhlükəsizlik otağı fəaliyyət göstərir. İndiki mərhələdə akademiyada təqribən 60 şagird yaşayır. Ərazidə olan ikinci binada trenajor zalı, geyim otaqları, duş otaqları və tibb kabinetləri yerləşib.

## "QARDABNOBA – 2018" QEYD EDİLİB

Qardabani şəhərində hər il olduğu kimi bu il də oktyabrın 21-i "Qardabnoba – 2018" qeyd edildi. Xalq bayramı çərçivəsində Qardabaninin 9 Aprel parkının ətraf ərazisində müxtəlif mədəniyyət və idman tədbirləri keçirilib. Xüsusi olaraq quraşdırılmış iki səhnədə musiqi və rəqs nömrələri ilə gürcü estradasının gənc ifaçıları və yerli folklor-xoreoqrafiya ansamblı şəhər sakinləri qarşısında çıxışlar ediblər. Həmçinin sərgi guşələri və aqro-pavilyonlar, uşaqlar üçün atraksionlar quraşdırılıb.

Bayram çərçivəsində bələdiyyədə yaşayan 23 əlaçı şagird və 6 fəxri vətəndaş mükafatlandırılıb. Onlar üçün xüsusi olaraq hazırlanmış mükafatı Qardabaninin majoritar deputatı Savalan Mirzəyev, Kvemo Kartli qubernatorunun müavinləri Zviad Cunaşvili, Kaxaber Koberidze və Zaur Darğallı, Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili və sakrebulo sədri Tariel Canxoteli verərək Qardabani sakinlərini bayram münasibəti ilə təbrik ediblər.

Tədbiri tanınmış musiqi qrupu "33a" və Niaz Diasamidze yekunlaşdırıb. "Qardabnoba – 2018" atəşfəşanlıqla sona çatıb.

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 OKTYABR 2018-Cİ İL
№017 (76)

## GÜRCÜSTANDA 10 POSTSOVET ÖLKƏSİNİN DÖVLƏT ARXİVLƏRİNİN AÇIQLIĞI QİYMƏTLƏNDİRİLİB



Gürcüstanda postsovet ölkələrin dövlət arxivlərinin açıqlığının qiymətləndirildiyi yeni www.open-archives.org veb platforma yaradılıb. İngilis və rus dillərində portalın hazırlanması üçün 10 keçmiş sovet respublikasının 18 dövlət arxivi üzrə araşdırmalar aparılıb.

Arxivlərin qiymətləndirilməsi müvafiq qanunvericilik, arxiv xidmətləri, rəsmi internet səhifə, oxucu otaqları və digər göstəricilər üzrə həyata keçirilib.

Platforma İnformasiya Azadlığının İnkişafı üzrə İnstitut (IDFI) tərəfindən Açıq Cəmiyyət İnstitutu – Budapeşt Fondunun (OSI) maliyyə dəstəyi ilə yaradılıb.

Portalda Ukrayna, Gürcüstan, Qazaxıstan, Moldova, Rusiya, Azərbaycan, Ermənistan, Özbəkistan, Belarus və Qırğızıstanın dövlət arxivlərinin açıqlığı üzrə reytinq tərtib olunub. Reytinqdə birinci yeri Ukrayna (70,11%), sonuncu yeri isə Qırğızıstan (38,9%) tutub.

Gürcüstanda dövlət arxivlərinin açıqlığı isə 68,37% səviyyəsində qiymətləndirilib. Azərbaycanda bu göstərici 55,82%, Ermənistanda isə 47,92% təşkil edib.

"Yeni platforma arxiv materialları üzərində çalışan araşdırmaçılar, jurnalistlər üçün qiymətli və faydalı resurs olacaq. Portalda həmçinin 10 ölkənin dövlət arxivləri ilə bağlı qanunvericiliklə də tanış olmaq mümkündür", - deyə IDFI-nin icraçı direktoru Giorgi Kldiaşvili bildirib.

G.Kldiaşvili qeyd edib ki, gələcəkdə portalın əhatə etdiyi ölkələrin miqyasının genişləndirilməsi planlaşdırılır.

## VƏTƏNDAŞLARIN BİR HİSSƏSİ 15 NOYABRA QƏDƏR AVTOMOBİLLƏRİNƏ GÖRƏ ƏMLAK VERGİSİ ÖDƏMƏLİ OLACAQLAR



Cari ildən müəyyən kateqoriyaya aid olan şəxslər avtomobillərə görə əmlak vergisi ödəməli olacaqlar. Belə ki, fiziki şəxs 1 noyabra qədər əmlak vergisinə dair bəyannaməni vergi orqanına təqdim etməli, vergini isə 15 noyabra qədər ödəməlidir.

Qeyd edək ki, vergi ödəmək öhdəliyi illik gəliri 40 min laridən çox olan ailələrə aiddir.

Vətəndaşlar avtomobil vergisini 2017-ci ilin gəlirinə əsasən ödəməli olacaqlar.

Verginin illik hissəsi vergi ödəyənin ailəsi tərəfindən vergi ili ərzində əldə olunan gəlirlərə əsasən fərqlənir. 40 mindən 100 min lariyə qədər gəliri olan ailələr üçün avtomobilin dəyərinin ən az 0,05%-i və ən çox 0,2%-i , 100 min lari və ya daha çox gəliri olan ailələr üçün avtomobilin dəyərinin ən az 0,8%-i və ən çox 1%-i ödənməli olacaq.

## HƏMİD HƏSƏNOVU QAZANDIĞI UĞURA GÖRƏ BOLNİSİLİ RƏSMİLƏR TƏBRİK EDİBLƏR



Gürcüstan parlamentinin üzvü Qoqi Meşveliani Bolnisi bələdiyyəsinin meri David Şerazadişvili ilə birgə Həmid Həsənovu kiqboksinq üzrə beynəlxalq turnirdə qalib olduğuna görə təbrik ediblər. Gənc idmançı beynəlxalq turnirdə 71 kq çəki dərəcəsində birinci yeri qazanıb. O, həmçinin bir çox mükafatların sahibidir.

## XARİCİLƏR GÜRCÜSTANDA BANK KARTLARI İLƏ 1,608 MİLYARD LARİ XƏRCLƏYİBLƏR



2018-ci ilin yanvar-sentyabr aylarında Gürcüstanda rezident olmayan bankların kartları ilə 1,608 milyard lari dəyərində əməliyyat həyata keçirilib.

2018-ci ilin sentyabrında xaricilər kartlarla 207,7 milyon lari xərcləyiblər. Bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 79,9 milyon lari azdır. 2017-ci ilin sentyabrında Gürcüstanda xaricilər bank kartları ilə 286,1 milyon lari xərcləyiblər.

Gürcüstan Milli Bankının statistik göstəricilərinə əsasən, sentyabrda rezident olmayan bankların kartları ilə bankomatlardan 106 milyon lari, post-terminallardan isə 101,6 lari çıxarılıb.

Ümumi göstəricilərə gəldikdə isə, 2018-ci ilin yanvar-sentyabr aylarında Gürcüstanda bank kartları ilə (yerli və xarici bankların) 17,2 milyard larilik əməliyyat həyata keçirilib. Əməliyyatların sayı isə 182,9 milyon təşkil edib. Yalnız sentyabrda həyata keçirilmiş əməliyyatlar zamanı xərclənən məbləğ 2 milyard larini təşkil edib.

## GÜRCÜSTANDA PİLOTSUZ UÇUŞ APARATLARININ İSTEHSALI PLANLAŞDIRILIR

Gürcüstan Müdafiə Nazirliyinin "Delta" Elmi-Texniki Mərkəzi (ETM) pilotsuz uçuş aparatları, helikopter və təyyarələrin istehsalına başlayacaq. Bu barədə Gürcüstan KİV-ləri "Delta" ETM-ə istinadla məlumat yayıblar.

Bundan başqa, mərkəzin zavod və digər istehsal müəssisələri çox funksiyalı "Didqori" zirehli avtomobillərinin müxtəlif modellərinin istehsalını da planlaşdırır. Bu kompleksə "Didqori-1" patrul, "Didqori-3" kəşfiyyat, piyada döyüş maşını "Lazika", yaylım atəşləri üçün PC-122 raket sistemi, minaları zərərsizləşdirən buldozerlər və s. avtomobillər daxildir. Bununla yanaşı, mərkəz zirehli geyim və dəmir baş geyimlərini də istehsal edəcək.

"Delta" zavodunda yanğınsöndürən texnikanın istehsalı da nəzərdə tutulub.

## TBİLİSİ AVTOBUSLARINDA PULSUZ "Wİ-Fİ" OLACAQ



"Bu ilin sonundan etibarən Tbilisidə "MAN" markalı sərnişin avtobusları pulsuz "Wi-Fi" şəbəkəsi ilə təmin olunacaq". Bunu Tbilisi meri Kaxa Kaladze şəhər hökumətinin iclasında bildirib.

Onun sözlərinə görə, ictimai nəqliyyatın inkişafı yalnız avtoparkın yenilənməsi və yeni marşrut xətlərinin açılması ilə kifayətlənmir: "İctimai nəqliyyatı əlavə xidmətlərlə təchiz etmək də inkişafın bir hissəsidir. Hesab edirik ki, ilin sonunda "MAN" markalı avtobusları pulsuz "Wi-Fi" şəbəkəsi ilə təmin etmək imkanımız olacaq. Vətəndaşlara həmin avtobuslarda pulsuz internetden istifadə etmək imkanı verilməlidir".

K.Kaladze həmçinin deyib ki, sarı rəngli sərnişin avtobusları yeniləri ilə əvəz olunacaq və 2019-cu ilin sonuna qədər avtopark tam yenilənəcək.

## ÇAR TEYMURAZIN MƏŞHUR PORTRETİ GÜRCÜSTANA QAYTARILIB



Çar Teymurazın portreti Gürcüstana qaytarıldı. Portret Baqrationilərin kral ailəsinin və kolleksiyasının tərkib hissəsidir. İncəsənət iqamətgahının ekspertləri portreti almaq üçün 1Stdibs qalereyası ilə danışıqlar aparıblar.

Gürcüstanın İncəsənət Muzeyinin direktoru Giorgi Kalandiya "Kartu" fondu ilə əlaqə saxlayıb və fond portretin əldə edilməsi üçün tam maddi və təşkilatçılıq baxımından yardım göstərib. Bir neçə günlük danışıqlardan sonra yekunda portreti "Kartu" fondu 38,400 ABŞ dollarına alıb və Gürcüstanın İncəsənət Muzeyinə verib.

Qeyd edək ki, portret çar Teymurazın ən qədim və yeganə təsviri hesab olunur.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.